# III BÖLMƏ.
# MİLLİ İNNOVASİYA SİSTEMİ VƏ İKT

UOT: 330.341.1

*Kənan Şöhrət oğlu VƏKİLOV*
*Bakı Dövlət Universitetinin "Dünya iqtisadiyyatı"*
*kafedrasının müəllimi, iqtisad üzrə fəlsəfə doktoru*
*kanan.vekilov@mail.ru*

## İNNOVATİV SAHİBKARLIĞIN İNKİŞAF ETDİRİLMƏSİNDƏ BEYNƏLXALQ KOOPERASİYANIN ƏHƏMİYYƏTİ

*Xülasə*

**Tədqiqatın məqsədi** innovativ sahibkarlığın inkişaf etdirilməsində beynəlxalq kooperasiyanın əhəmiyyətinin tədqiqindən və müasir elmi-praktiki baxışların formalaşdırılmasından ibarətdir.

**Tədqiqatın metodologiyası** - məqalənin hazırlanmasında təhlil, sintez və ümumiləşdirmə metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti -** Azərbaycanda innovativ sahibkarlığın inkişaf etdirilməsində beynəlxalq kooperasiya proseslərində toplanmış mütərəqqi təcrübədən səmərəli istifadə olunması ilə bağlıdır.

**Tədqiqatın nəticələri** - Azərbaycanda innovativ sahibkarlığın inkişaf etdirilməsində beynəlxalq kooperasiyanın əhəmiyyətinin elmi baxımdan dərk edilməsi, bu sahədə mövcud yanaşmalardan fəal istifadə edilməsi istiqamətində təkliflərin hazırlanması ilə ifadə olunur.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** - yeni çağırışlar şəraitində innovativ sahibkarlığın intensivləşdirilməsinə və bu proseslərdə beynəlxalq kooperasiyanın roluna dair konseptual müddəalar işlənilmiş və müasir dövrdə innovativ sahibkarlığın inkişafının daha səmərəli təşkil olunmasının vacibliyi əsaslandırılmışdır.

***Açar sözlər: innovativ sahibkarlıq, beynəlxalq kooperasiya, elmi-texniki yeniliklər, innovasiya siyasəti, innovatik yanaşmalar, Azərbaycanda innovativ sahibkarlığın inkişafı, innovatik sahibkarlığın inkişaf perspektivləri.***

### *Giriş*

Ölkənin innovasiya siyasətinin əsas istiqamətlərindən biri beynəlxalq kooperasiya əsasında innovativ sahibkarlığı inkişaf etdirmək və bu sahədə rəqabət üstünlükləri əldə etmək üçün şərait yaradılmasıdır. Azərbaycanın innovativ inkişaf səviyyəsinə və istehsalın texniki təminatına görə qabaqcıl ölkələrdən geri qalmasını nəzərə alaraq, deyə bilərik ki, özünün texnoloji bazasını inkişaf etdirmək məqsədilə təşəbbüslər həyata keçirməklə yanaşı, qabaqcıl dünya təcrübələrindən istifadə etmək üçün səylər göstərmək lazımdır. Müəssisələr arasında kooperasiya bilik mübadiləsini, risklərin, xərclərin azaldılmasını, habelə ümumilikdə innovasiya resurslarının və nəticələrinin birləşdirilməsini təmin edir ki, bu da müasir reallıqlarda onun uğurla həyata keçirilməsi üçün mühüm meyar kimi çıxış edir. Bunu nəzərə alaraq, innovativ sahibkarlığın inkişafı sahəsində beynəlxalq kooperasiyanın əhəmiyyətinin aktivləşdirilməsinə obyektiv ehtiyac vardır. Müasir dünyada elm, innovasiya və yeni texnologiyalar sosial-iqtisadi inkişafda həlledici amildir. Onların köməyi ilə məhsulların, malların və xidmətlərin istehsal həcmi və çeşidi durmadan artır. Yeni nəsil texnologiyaları öz mütərəqqi üstünlüklərini artırmağa və sosial-iqtisadi inkişafın mənfi amillərinin təsirini

müəyyən edilmiş həddə saxlamağa yönəlib. Bu gün dünyanın əksər ölkələri elmi-texniki fəaliyyətin nəticələrinin yaradılması, ötürülməsi və istifadəsinin davamlı iqtisadi inkişafın əsas şərtləri olduğu innovativ biliklərə əsaslanan iqtisadiyyata keçid vəzifəsini qarşılarına qoyur [9, s. 160] .

Məlumdur ki, müasir dövlətin iqtisadi, sosial və siyasi gücü onun iqtisadiyyatında yüksək texnologiyalardan istifadəyə əsaslanır. Ancaq məsələ innovativ texnologiyaların özündə, təsərrüfat subyektlərinin onları davamlı olaraq istehsal etmək qabiliyyətində deyil, onları bazara çıxarmaq, tez bir zamanda ehtiyac duyduğu məhsul və xidmətlərə çevirmək qabiliyyəti və bacarığındadır. Yeni texnologiyaların kommersiyalaşdırılması mexanizminin müasir konsepsiyası ondan ibarətdir ki, texnologiyaların elmi sferadan sənaye sahəsinə yayılması yalnız innovasiya fəaliyyətinin bütün subyektlərinin, o cümlədən, alimlər, tədqiqatçılar, investorlar, sahibkarlar və dövlət orqanlarının fəal qarşılıqlı əlaqəsi və əməkdaşlığı ilə səmərəli olur.

**Yeni çağırışlar kontekstində innovativ sahibkarliğin inkişaf etdirilməsində beynəlxalq kooperasiyanin aktual məsələləri**

Son illərdə bir çox elmi tədqiqatlarda daha çox innovasiya və sahibkarlıq probleminə diqqət yetirilir. Bu problemlərin hər ikisinə həm nəzəri, həm də təcrübi baxımdan yanaşılır [1, s. 41]. Sahibkarlıq fəaliyyəti sistemli şəkildə mənfəət əldə etmək məqsədi ilə konkret məhsulların (işlərin, xidmətlərin) yaradılması və satışı prosesinin təşkili və həyata keçirilməsidir. İnnovasiya isə yeni və ya təkmilləşdirilmiş məhsulların yaradılması, mənimsənilməsi, yayılması və tətbiqi prosesidir. Sahibkarlıq fəaliyyətindən fərqli olaraq, innovasiya başqa bir problemi həll edir - sahibkarın müxtəlif növ effektlər (iqtisadi, sosial, ekoloji və s.) əldə etmək üçün yenilik axtarışını və inkişafını təmin edir. Bu zaman innovativ fəaliyyət sahibkarın fəaliyyətinin funksional sahələrindən biri kimi nəzərdən keçirilir və sahibkarlıq fəaliyyətinin innovativ növünü xarakterizə edir [8, s. 94].

İnnovasiya prosesinin özəlliyi ondan ibarətdir ki, o, elmi, texnologiyanı, iqtisadiyyatı, sahibkarlığı, idarəetməni özündə birləşdirir və elmi ideyanın yarandığı vaxtdan onun kommersiyalaşdırılmasının həyata keçirilməsinə qədər bütün spektri əhatə edir. İnnovasiya mövcud müəssisənin inkişafının yeni yollarının axtarışına əsaslanır. İnnovasiyalar həm də yeni sosial, ekoloji, təşkilati, iqtisadi inkişaflar, idarəetmə üsulları və iqtisadi fəaliyyətin informasiya təminatıdır. İnnovasiyanın mühüm xüsusiyyətləri onun elmi-texniki yeniliyi, sənayedə tətbiqi və kommersiya məqsədəuyğunluğudur. Bu o deməkdir ki, elmi-texniki yeniliklər özündə yeniliyi ehtiva etməli, cəmiyyətin bazar tələbatını ödəməli, istehsalçıya maksimum gəlir gətirməlidir. Müasir dövrdə sahibkarın ən çətin işlərindən biri yeni ideyaların axtarışı və həyata keçirilməsidir. Bunun üçün yeni həll yolları tapmaq, yaradıcı düşünmək lazımdır. Lakin bütün bunlarla yanaşı, mövcud şəraitdə fəaliyyət göstərən qüvvələr balansını qiymətləndirmək və anlamaq bacarığı tələb olunur. Bütün bunlar innovativ sahibkarlıq üçün əsasdır. İnnovativ sahibkarlıq dedikdə, milli iqtisadiyyatın bütün sahələrində innovasiyaların yaradılması və fəal şəkildə yayılması yolu ilə gəlir əldə etmək məqsədi daşıyan kommersiya fəaliyyətinin xüsusi növü başa düşülür. İnnovativ sahibkarlıq kommersiya fəaliyyətinin bir növüdür. Məqsədi təhsil və iqtisadiyyatın bütün sahələrində innovasiyaların aktiv şəkildə yayılması ilə gəlir əldə etməkdir. O, müəssisənin inkişafının yeni üsullarının axtarışına və ya yeni innovasiya yönümlü müəssisənin yaradılmasına əsaslanır [7, s. 116]. İnnovativ sahibkarlığın subyektlərinə fərdi sahibkarlar və innovasiya fəaliyyətini həyata keçirən bütün mülkiyyət formalı təşkilatlar daxildir. İnnovativ sahibkarlıq elmi-tədqiqat, istehsalat və layihə institutlarında və ya birliklərində, universitetin elm müəssisələrində, bilavasitə innovativ müəssisələrdə, vençur təşkilatlarında, habelə ayrı-ayrı ixtiraçılar, konstruktorlar, texnoloqlar və alimlər tərəfindən həyata keçirilə bilər. İnnovativ sahibkarlıq nəticəsində bu subyektlər mallar, xidmətlər, görülən işlər, texniki vasitələr və texnologiyalar formasında innovasiyalar yaradırlar.

Klassik sahibkarlıqdan fərqli olaraq, innovativ sahibkarlıq istehsalın intensiv inkişafını nəzərdə tutur. Burada sahibkarın innovativ rolu artır. Çünki o, innovativ sahibkarlığa imkan verən müasir texnika və texnologiyadan istifadə edərək yeni mallar yaradan şəxs kimi çıxış edir (Şəkil 1).




***Şəkil. İnnovativ sahibkarlığın sxemi (müəllif tərəfindən hazırlanmışdır).***

Qeyd edək ki, innovativ sahibkarlıq anlayışının geniş şərhinə iki amil kömək edir. Birincisi, əsas məqsədi məhsul istehsal etmək olan bütün şirkətlər məhsulların həm özlərinin, həm də bütövlükdə şirkətin rəqabət qabiliyyətini qorumaq üçün innovativ fəaliyyətlə məşğul olurlar. Yüksək dinamik bazarda müəssisələr rəqiblərin və xarici mühitin dəyişiklikləri səbəbindən istehsalın davamlı modernləşdirilməsini həyata keçirirlər. İstehsalın davamlı yenilənməsi davamlı rəqabət üstünlüyünün mənbəyidir. Yeniliklərdən istifadə sürəti, bazarda baş verən dəyişikliklərə reaksiya sürəti rəqabət üstünlüyü əldə etməyin açarıdır. İkincisi, innovativ sahibkarlıq bütövlükdə tədqiqat, elmi-texniki, istehsal fəaliyyətini, habelə marketinqi, maliyyələşdirməni və yeni məhsul və ya xidmət növünün inkişafı və yayılmasına investisiyaları əhatə edən innovativ proseslərin müxtəlifliyi ilə xarakterizə olunur. Ona görə də bir çox mənbələrdə tamamilə haqlı olaraq sahibkarlığın daha çox innovativ xarakter daşıdığı qeyd olunur və mühüm vəzifə sahibkarlığın inkişafına yönəldilir [5, s. 41].

İnnovativ sahibkarlığın formalaşmasına ehtiyac bir sıra səbəblərdən qaynaqlanır. Hər şeydən əvvəl, texnika və texnologiyanın köhnəlməsi, yeni texnologiyanın sürətlə tətbiqinə obyektiv ehtiyac yaranır. Bu, ixtiraçıların kütləvi yaradıcılığının inkişaf etdirilməsini və yeni texnologiyanın yaradılması və mənimsənilməsi üçün lazım olan vaxtın əhəmiyyətli dərəcədə azaldılmasını tələb edir. İnnovasiya sahibkarlığının təşkili və stimullaşdırılması sahəsində xarici təcrübə göstərir ki, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin dövlət elmi-texniki siyasəti əlverişli innovasiya mühitinin yaradılmasına və dəstəklənməsinə yönəlmiş təşkilati və qanunvericilik tədbirləri kompleksinin həyata keçirilməsinə əsaslanır. İnnovasiya sahibkarlığının inkişafının stimullaşdırılmasının ən mühüm mexanizmləri bunlardır: innovasiya sahibkarlığının büdcə maliyyələşdirilməsinin yüksək səviyyəsi ilə ixtisaslaşmış innovativ proqramların və layihələrin işlənib hazırlanması, güzəştli kreditləşdirmə, vergitutma və elmi-tədqiqat işlərinin sığortalanması sistemlərinin işləməsi, sürətləndirilmiş amortizasiya və s. Demək olar ki, bütün ölkələrdə özəl sektor və universitetlər innovasiya prosesində fəal iştirak edir, onların bir çoxunda elmi-tədqiqat mərkəzləri fəaliyyət göstərir, elmi məktəblə istehsalat arasında əməkdaşlıq inkişaf etdirilir, innovasiya istifadəçiləri üçün informasiya təminatı və xidmətlər səmərəli təşkil olunur. İnnovasiya sahibkarlığını sürətləndirmək üçün: 1) innovasiyaların kommersiyalaşdırılmasına investisiyaların cəlbediciliyi artırılmalıdır; 2) təsərrüfat subyektlərinin innovasiyalara maksimum həssaslığını təmin edən şərait yaradılmalıdır (əlverişli investisiya mühitinin yaradılmasına yönəlmiş tədbirlər, o cümlədən vergi rejimi, gömrük siyasəti); 3) dövlət səviyyəsində texnologiyaların vaxtaşırı modernləşdirilməsi və yenilənməsi yolu ilə rasional innovasiya dinamikasına dəstək verilməlidir; 4) innovasiyaları stimullaşdırmaq məqsədilə ölkə qanunvericiliyində islahatlar aparılmalıdır (məsələn, əqli mülkiyyət hüquqlarından istifadənin

tənzimlənməsi üzrə); 5) innovativ infrastrukturun formalaşdırılması və inkişafı üçün tədbirlər hazırlanmalı və həyata keçirilməlidir; 6) texnologiyaların və innovasiyaların dünya bazarlarına fəal çıxışını, onların transferi istiqamətində strateji fəaliyyəti təmin etmək və bu sahədə beynəlxalq kooperasiyanı gücləndirmək, ölkə mütəxəssislərinin beynəlxalq elmi-texniki layihələrdə iştirakı təmin edilməlidir [3, s. 30].

Deməli, milli innovasiya sisteminin inkişafının əsas istiqamətlərinin və perspektivlərinin müəyyən edilməsi və əsaslandırılması iqtisadi inkişafın müasir mərhələsində həlledici əhəmiyyət kəsb edir. Məhz sənayenin tərəqqisini, iqtisadi fəaliyyətinin əsas elementləri olan yerli müəssisələrin maliyyə sabitliyini müəyyən edəcək səmərəli və rəqabətqabiliyyətli innovasiya sisteminin formalaşdırılmasıdır. İnnovativ sahibkarlığın inkişafında beynəlxalq kooperasiyanın xüsusi rolu vardır. İnformasiya cəmiyyətində elm, texnologiya və innovasiya sahəsində beynəlxalq kooperasiya daim genişlənir. Dünya iqtisadiyyatının qloballaşması şəraitində iri innovativ layihələrin həyata keçirilməsi və onların nəticələrinin bazara çıxarılması yalnız transmilli tədqiqat və istehsal şəbəkələri zəncirləri çərçivəsində mümkündür. Bu baxımdan innovativ sahibkarlığın inkişafı sahəsində beynəlxalq kooperasiyanın rolunun gücləndirilməsi hər bir dövlətin siyasətinin prioritet istiqamətlərindən biridir. İnnovativ sahibkarlıq sahəsində beynəlxalq kooperasiya aparıcı ölkələrin dövlətləri və hökumətləri tərəfindən fəal şəkildə dəstəklənir və innovativ layihələrin həyata keçirilməsində elm, biznes və dövlətin sıx qarşılıqlı fəaliyyətini təmin edir. Hazırda ölkənin dövlət elmi, texnoloji və innovasiya siyasətində beynəlxalq kooperasiyanın inkişafı üçün iki əsas prioriteti ayırmaq olar: a) İnnovativ sahibkarlıq sahəsində beynəlxalq kooperasiyanın rolunun və payının artırılması və b) Beynəlxalq kooperasiyanın inkişafı üçün mexanizmlərin və infrastrukturun yaradılması.

Beynəlxalq kooperasiyanın xarakterik xüsusiyyəti ondan ibarətdir ki, istehsal olunan mal və xidmətlər milli və xarici iştirakçıların birgə əməkdaşlığına əsaslanır. İstehsal olunan məhsul növləri həm birgə müəssisənin yerləşdiyi ölkədə, həm də xarici bazarlarda satılır. Beynəlxalq kooperasiya beynəlxalq iqtisadi əməkdaşlığın mürəkkəb təşkilati formasıdır və burada müxtəlif ölkələrin biznes tərəfdaşları arasında daha sıx əlaqələr qurulur. Beynəlxalq kooperasiyanın innovativ sahibkarlığın inkişafına təsiri çoxşaxəlidir. Həmin təsir növlərini aşağıdakı cədvəl vasitəsilə əks etdirə bilərik (cədvəl 1).

***Cədvəl 1***

***Beynəlxalq kooperasiyanın innovasiya sahibkarlığına təsir növləri***

| **Təsir növləri** | **Təsirin xarakteristikası** |
|---|---|
| İqtisadi təsir | Beynəlxalq kooperasiya əsasında innovativ layihələrin istehsalata tətbiqi nəticəsində əldə edilən ümumi gəlirləri və çəkilən xərcləri xarakterizə edir. |
| Elmi-texniki təsir | Tətbiq olunan innovativ məhsulların elmi-texniki səviyyəsini xarakterizə edir. |
| Maliyyə təsiri | İnnovasiya sahibkarlığının inkişafının maliyyə nəticələrinə əsaslanır. |
| Resurs təsiri | Beynəlxalq kooperasiya əsasında müəyyən resurs növünün istehsalı və istehlakının həcminə innovasiyanın təsirini xarakterizə edir. |
| Sosial təsir | İnnovasiya fəaliyyəti işçilərinin həyat səviyyəsinin yüksəldilməsinə təsirini müəyyən edir. |
| Ekoloji təsir | Beynəlxalq kooperasiya əsasında innovasiya fəaliyyətinin ətraf mühitə təsirini müəyyən edir. |

*Qeyd: müəllif tərəfindən tərtib edilib*

Qeyd edək ki, innovativ sahibkarlıq mühitinin formalaşmasında mühüm rol oynayan tədqiqat və inkişafla bağlı fəaliyyətlər birtərəfli deyil, bir neçə şirkətin birgə səyləri nəticəsində müsbət effekt verir [2, s. 121]. Ona görə də hazırda innovativ sahibkarlığın inkişafında beynəlxalq kooperasiyanın rolunun artırılmasına imkan verən şərait yaratmaq lazımdır. İnnovativ sahibkarlığın inkişafı sahəsində beynəlxalq kooperasiyanın rolunun gücləndirilməsi üçün perspektivli sahələrin müəyyən edilməsi və onların həyata keçirilməsini təmin edən dövlət tənzimləmə mexanizmlərinin

işlənib hazırlanması zəruridir. İnnovativ sahibkarlığın inkişafı sahəsində beynəlxalq kooperasiyanın əhəmiyyətinin qiymətləndirilməsi üçün alətlərin işlənib hazırlanması hal-hazırda aktual problem olaraq qalır. Beynəlxalq kooperasiyanın təhlili üçün onun ümumi inkişaf səviyyəsini, eləcə də ayrı-ayrı sahələrini qiymətləndirməyə imkan verən xüsusi alətlərdən istifadə etmək olar.

Bundan əlavə, innovativ sahibkarlığın inkişafı sahəsində beynəlxalq kooperasiyanın monitorinqinə ehtiyac artır. Bu problemlərin həlli əsaslandırılmış idarəetmə qərarları qəbul etməyə, innovativ fəaliyyətin dövlət idarəçiliyi üzrə hazırlanmış tədbirlərin məqsədyönlülüyünü təmin etməyə və ölkənin təsis qurumlarının beynəlxalq innovasiya proqramlarına və layihələrinə qoşulma imkanlarını müəyyən etməyə imkan verəcəkdir. Monitorinq dövlətin innovasiya siyasətinin mühüm alətlərindən biridir və aşağıdakıları təmin etmək üçün nəzərdə tutulmuşdur:

- beynəlxalq elmi tədqiqatların və eksperimental layihə işlərinin həyata keçirilməsinə dair məlumatların əldə edilməsi;
- innovasiya əməkdaşlığı əsasında beynəlxalq səviyyəli innovativ məhsulların hazırlanması və istehsalı haqqında məlumatların əldə edilməsi;
- beynəlxalq kooperasiyanın inkişafında milli innovasiya siyasətinin həyata keçirilməsi, dövlət sifarişlərinin, habelə məqsədli proqram və konsepsiyalarının icrası;
- innovasiya sferasına investisiya resurslarının cəlb edilməsi imkanlarının müəyyən edilməsi və s. [6, s. 4].

Monitorinq qərar qəbul edən şəxsləri məlumatlandırmaq yolu ilə innovasiyaların dövlət idarəçiliyi mexanizminin düşünülmüş şəkildə həyata keçirilməsini və təkmilləşdirilməsini təmin edən bir vasitə kimi çıxış edə bilir.

**Azərbaycanda innovativ sahibkarlığın inkişaf etdirilməsində beynəlxalq kooperasiya münasibətlərinə yanaşmalar və perspektivlər**

Müasir şəraitdə ölkəmiz üçün COVİD-19 pandemiyasının mənfi nəticələrinin aradan qaldırılması vəzifəsi ən prioritet vəzifələrə çevrilir. Postpandemiya dövründə milli iqtisadiyyatın inkişafı və bir çox sosial problemlərin həllində ən mühüm strateji amillərdən biri ölkənin iqtisadi məkanında sivil müasir sahibkarlığın formalaşdırılmasıdır. Bunun üçün innovativ sahibkarlığı inkişaf etdirmək lazımdır ki, bu, ilk növbədə, təsərrüfat subyektləri - müəssisələr və fərdi sahibkarlar səviyyəsində innovativ fəaliyyətin ciddi şəkildə intensivləşdirilməsini tələb edəcəkdir. Bu onunla əlaqədardır ki, innovasiyaların birbaşa kommersiyalaşdırılması prosesi (yəni, innovasiyaların iqtisadi dövriyyəyə daxil edilməsi) iqtisadiyyatın sahibkarlıq sektorunun səlahiyyətindədir. Bu proseslər ölkəmizin milli iqtisadiyyatını elmtutumlu istehsal əsasında yenidən təşkil etməyə imkan verəcək ki, bu da texnoloji cəhətdən inkişaf etmiş ölkələrdən getdikcə geriləmə meylini neytrallaşdırmağa kömək edəcək. Ölkənin inkişafının hazırkı mərhələsində onun iqtisadi siyasətinin prioritet vəzifələri innovativ sahibkarlığı inkişaf etdirmək və bu əsasda iqtisadi artımı təmin etməkdən ibarətdir. İqtisadi artım və inkişaf tempi əsasən ölkəyə kifayət qədər xarici kapitalın cəlb edilməsindən, müxtəlif innovasiya və investisiya layihələrində xarici investorların iştirakından asılıdır. Xarici kapitaldan və yerli sənayenin yüksək texnologiyalı sahələrində innovasiyalardan istifadə rəqabətqabiliyyətli iqtisadiyyatın yaradılmasına, istehsal proseslərinə müasir innovativ texnologiyaların tətbiqinə töhfə verə və ölkənin keyfiyyətcə yeni texnoloji səviyyəyə daha sürətli çıxışını təmin edə bilər [4, s. 93]. Bu, eyni zamanda innovativ sahibkarlığın inkişaf etdirilməsi baxımından əhəmiyyətlidir.

Hazırda Azərbaycanın əsas problemi texnologiyalar idxalının onların ixracından əhəmiyyətli üstünlüyü və bu sahədə beynəlxalq kooperasiyanın zəif inkişafıdır. Bu, aşağıdakı tədbirlərin həyata keçirilməsi zərurətini gündəmə gətirir: 1) beynəlxalq elmi-tədqiqat işlərinin inkişafı; 2) beynəlxalq kooperasiya yolu ilə əlavə resursların cəlb edilməsi; 3) innovativ fəaliyyətin nəticələrinin xarici bazarlarda kommersiyalaşdırılması və 4) texnologiyaların ixrac və idxalının strukturunun yenidən qurulması. Digər tərəfdən, innovativ sahibkarlığın inkişafı sahəsində beynəlxalq kooperasiyanın rolunun artırılması üçün aşağıdakılara diqqət yetirilməlidir:

1. Müəssisələrin xarici ölkələrlə birgə elmi-tədqiqat işlərində iştirakının aktivliyinin artırılması.

2. Beynəlxalq səviyyədə innovativ məhsulların tətbiqi istiqamətində kooperasiyanın daha da inkişaf etdirilməsi.

3. İnnovativ sahibkarlığın inkişafı üçün əlavə resursların cəlb edilməsi istiqamətində xarici tərəfdaşlarla kooperasiya əlaqələrinin dərinləşdirilməsi. Dövlət və regional hakimiyyət orqanları və onların rəhbərliyi beynəlxalq kooperasiyadan fayda əldə etməyə yönəlmiş tədbirlərin həyata keçirməsi ilə innovasiyada istifadə olunan əlavə resursları cəlb etməklə öz ərazilərini inkişaf etdirə bilərlər.

4. İnnovasiyaları tənzimləyən qanunvericilik bazasının mükəmməl olması.

5. Beynəlxalq kooperasiyanın inkişafı üçün mövcud imkanlar (fondlar, proqramlar, qrantlar və s.) haqqında innovativ fəaliyyətlə məşğul olan təşkilatların məlumatlılığının artırılması.

6. Beynəlxalq elmi-texniki əməkdaşlığın sistematik monitorinqinin təmin edilməsi və ölkənin bu sahə ilə bağlı mövcud qurumlarının beynəlxalq elmi-texniki proqram və layihələrə qoşulması imkanlarının müəyyən edilməsi.

7. Xarici və yerli elmi-tədqiqat təşkilatlarında işçilər üçün stimullaşdırma mexanizmlərinin aktivləşdirilməsi.

8. Beynəlxalq kooperasiyanın intensivləşdirilməsi: elm və texnikanın əsas sahələrində kooperasiyanın prioritet istiqamətlərinin müəyyən edilməsi, mövcud infrastrukturdan maksimum dərəcədə istifadə edilməsi.

9. Beynəlxalq kooperasiyanın dəstəklənməsi üçün infrastrukturun təkmilləşdirilməsi.

Beynəlxalq kooperasiyanın təmin etdiyi perspektivləri və innovasiya problemlərini müqayisə edərək qeyd etmək olar ki, müəssisələrin beynəlxalq innovasiya kooperasiyasına cəlb edilməsi elmi-tədqiqat və təcrübə-konstruktor işləri aparan təşkilatların sayının artmasına, elmi-tədqiqat və təkmilləşdirmə ilə məşğul olan kadrların sayının artırılmasına imkanlar yaradar. Habelə, əlavə maliyyə resurslarının cəlb edilməsinə gətirib çıxarar ki, bu vəsaitlər innovativ fəaliyyətin inkişafı üçün istifadə oluna bilər. Azərbaycan və xarici təşkilatlar arasında kooperasiya alətləri kimi beynəlxalq innovativ əməkdaşlığın inkişafına yönəlmiş həm regional, həm də ümumdövlət proqramlarının və innovativ infrastruktur şəbəkələrinin imkanlarından istifadə etmək məqsədəuyğundur. İnnovativ sahibkarlıq sahəsində beynəlxalq kooperasiyanın inkişafını nəzərə alaraq, mühüm məqamları qeyd etmək lazımdır. Məsələn, bəzi hallarda innovativ sahibkarlığın inkişafı üçün çatışmazlıq və maneə milli xüsusiyyətlər nəzərə alınmadan qabaqcıl sənaye ölkələrinin təcrübəsinin kortəbii surətdə istifadəsidir. Odur ki, innovativ sahibkarlığın inkişafı üzrə tədbirlər çox vaxt istənilən nəticəni vermir. Ona görə də, innovativ sahibkarlığın inkişafı üzrə tədbirlər işlənib hazırlanarkən, ilk növbədə, ölkənin spesifikliyini nəzərə almaq, mövcud imkanlardan, ərazinin güclü tərəflərindən, yəni, innovativ fəaliyyətin inkişafı üçün həyata keçirilən tədbirlərdən istifadə etmək lazımdır. Yəni, innovativ sahibkarlığın inkişafı mövcud şəraitə adekvat olmalıdır.

İnnovativ sahibkarlığın inkişafı üçün beynəlxalq kooperasiya əlaqələrinin özünün inkişafı mühüm əhəmiyyətə malikdir. Beynəlxalq kooperasiyanın əsas sahəsi ölkədə yüksək texnologiyalı sənaye və beynəlxalq şirkətlərin tədqiqat mərkəzlərinin yaradılmasıdır. Bu, istehsal müəssisələrinin, elmi-tədqiqat və mühəndislik mərkəzlərinin yerləşdiyi ərazilərə yüksək texnologiyalı beynəlxalq şirkətlərin cəlb edilməsini nəzərdə tutur. Bunun üçün həmin şirkətlərə geniş vergi güzəştləri və üstünlüklər paketi təqdim olunmalıdır. Digər əsas sahə beynəlxalq elmi-texniki kooperasiyanın inkişafıdır. Bu, texnologiyanın inkişafının prioritet sahələrində elmi-texniki və innovativ əməkdaşlığı stimullaşdırmaq, beynəlxalq kooperasiyanın intensivləşməsinə maneələri aradan qaldırmaq, o cümlədən xarici tədqiqatçılara giriş vizalarının verilməsi şərtlərini sadələşdirmək, tanınmasını təmin etmək üçün ikitərəfli və çoxtərəfli beynəlxalq müqavilələrin bağlanmasına imkan verir. Azərbaycanın beynəlxalq elmi-texniki əməkdaşlığının məqsəd və vəzifələrinə gəlincə, bu, dövlət siyasəti sistemində beynəlxalq elmi-texniki kooperasiyanın roluna və yerinə, habelə mövcud sənədlərə uyğun olaraq ölkə qanunvericiliyi ilə müəyyən edilməlidir.

### *Nəticə*

Müasir dövrdə qloballaşma şəraitində yeni inkişaf tendensiyalarını təmin etmək üçün beynəlxalq kooperasiya qarşısında duran bir sıra problemlərin həlli zəruridir ki, bunları aşağıdakı kimi xarakterizə etmək olar:

- beynəlxalq kooperasiya prinsiplərinin möhkəmləndirilməsi istiqamətində davamlı səylər göstərilməlidir;
- beynəlxalq kooperasiyanın təşviqi gücləndirilməli və dəstəklənməlidir;
- beynəlxalq kooperasiya innovativ sahibkarlığın inkişafına imkan verəcək yeni müxtəlif təsərrüfatçılıq metodları ilə zənginləşdirilməlidir;
- beynəlxalq kooperasiyanın innovativ sahibkarlığın inkişafında rolunun artırılmasına imkan verəcək institusional bazanı təkmilləşdirən və onların fəaliyyət səmərəliliyini stimullaşdıran daha əlverişli iqtisadi mühit yaradılmalıdır;
- yüksək rəqabətqabiliyyətli və yerli tələblərə tam cavab verən rəqabətqabiliyyətli bazar yaradılmalıdır.

İnnovativ sahibkarlıq sahəsində beynəlxalq kooperasiyanın inkişafı aşağıdakı tədbirlərin həyata keçirilməsinə kömək edə bilər:

1) Beynəlxalq kooperasiyanın dəstəklənməsi üçün infrastrukturun təkmilləşdirilməsi. Azərbaycan və xarici təşkilatlar arasında əməkdaşlıq alətləri kimi artıq yaradılmış beynəlxalq təşkilatların və proqramların imkanlarından, innovativ infrastruktur şəbəkələrindən istifadə etmək məqsədəuyğundur.

2) Beynəlxalq elmi-texniki kooperasiyanın sistemli monitorinqinin aparılması və ölkənin təsis qurumunun beynəlxalq elmi-texniki proqram və layihələrə qoşulması imkanlarının müəyyən edilməsi. Eyni zamanda, ölkənin regionlarının elmi və innovativ potensial səviyyəsinin diferensiallaşdırılmasını nəzərə almaq lazımdır.

3) Dünya ölkələri üzrə kooperasiyanı müəyyən edərkən ümumi elmi-texniki məkanın formalaşmasının üstünlüklərini və coğrafi yaxınlığı nəzərə almaq lazımdır. Beynəlxalq kooperasiya çərçivəsində elmi-texniki siyasətin əlaqələndirilməsi elm və texnologiyanın əsas sahələrində kooperasiyanın prioritet istiqamətlərinin müəyyənləşdirilməsinə, elmi tədqiqatların təşkili üçün vahid standartların və metodologiyanın əldə edilməsinə, mövcud imkanlardan daha yaxşı istifadə edilməsinə səbəb ola bilər.

Bütün bunlar innovativ sahibkarlığın yüksək inkişaf səviyyəsinə nail olmağa gətirib çıxarar. İnnovativ sahibkarlığın inkişafının yüksək səviyyəsi öz növbəsində təkcə iqtisadi artımın deyil, bütövlükdə sosial inkişafın da aktiv tempini əvvəlcədən müəyyən edir.

## ƏDƏBİYYAT


1. Abbaszadə, M.T. Azərbaycanda müasir innovasiya siyasətinin ölkənin iqtisadi inkişafında rolu. Elm və İnnovativ Texnologiyalar Jurnalı, 2020, № 14, s. 32-45.
2. Qasımov, İ.H., Cəbiyev F.A. İnnovasiya sahibkarlığı və texnoparklar. Bakı, 2017, 182 s.
3. Mahmudova, L.F. Strateji innovasiya proseslərinin və idarə edilməsinin səmərəlilik problemləri. Geostrategiya jurnalı, №02 (50), mart-aprel 2019, s.29-32.
4. Атюков, И.Г. Методология оценки уровня международного сотрудничества с использованием инновационных технологий и инвестиций // Экономические науки, 2017, № 147, с. 89-94.
5. Канапухин, П.А., Понькина М.В. Инновационное предпринимательство как механизм реализации стратегии региона // Вестник Воронежского государственного университета. Серия: Экономика и управление, 2016, № 4, с.40-48.
6. Кузьмин, И.В. Мониторинг развития международного сотрудничества в инновационной сфере как инструмент государственного управления // Региональное развитие, 2017, № 3, с.9.

7. Осипова, Д.П., Остобунаева С.В., Десятниченко Д.Ю. Инновационное предпринимательство: необходимость перехода // Экономика и бизнес: теория и практика, 2017, № 4-1, с.115-120.
8. Палкина, М.В., Палкин А.Ю. Инновационное предпринимательство: понятие, сущность и специфика // Вестник ВСГУТУ, 2016, № 1(58), с.89-96.
9. Тухтасинова, М.М., Толибов И.Ш. К проблемам активизации инновационной деятельности. Жоурнал оф Еъономй анд Бусинесс, 2019, вол. 3-2, с.160-164.

***Кянан Шохрат оглы Вакилов***
***преподаватель кафедры «Мировая экономика»***
***Бакинского Государственного Университета,***
***доктор философии по экономике***

## Важнейшие факторы международной кооперации в развитии инновационного предпринимательства

***Резюме***

**Цель исследования** - в статье рассматривается определение важнейших факторов международной кооперации в развитии инновационного предпринимательства и формировании современных научно-практических подходов.

**Методология исследования** - заключается в экономических методах - анализе, синтезе, обобщении и др.

**Практическое значение исследования** - отражается в эффективном обеспечении использования прогрессивного опыта и форм управления процессами международной кооперации в развитии инновационного предпринимательства в Азербайджане.

**Результаты исследования** - подготовлен ряд предложений и рекомендаций по активному использованию существующих механизмов и подходов к международному опыту и научному осмыслению значимости усиления международной кооперации в развитии инновационного предпринимательства в Азербайджане.

**Оригинальность и научная новизна исследования** - заключается в разработке концептуальных положений о роли международной кооперации и в интенсификации инновативного предпринимательства в новых условиях, а так же в подготовке обоснованных предложений эффективного обеспечения развития инновационного предпринимательства в современном периоде.

***Ключевые слова: инновационное предпринимательство, международная кооперация, научно-технические новшества, инновационная политика, инновационные подходы, развитие инновационного предпринимательства в Азербайджане, перспективы развития инновационного предпринимательства.***

***Kanan Shohrat Vakilov***
***lecturer of the "World Economy"***
***department of Baku State University,***
***Doctor of Philosophy in Economics***

## Key factors of international cooperation in the development of innovative entrepreneurship

***Summary***

**The purpose of the study** - the article considers the explanation of the most important factors of international cooperation in the development of innovative entrepreneurship, the formation of modern scientific and practical approaches.

**Research methodology** - consists in economic methods - analysis, synthesis, generalization, etc.

**The practical significance of the research** is reflected in the effective use of progressive experience and forms of management of international cooperation processes in the development of innovative entrepreneurship in Azerbaijan.

**Results of the research** - a number of proposals and recommendations are prepared on the active use of existing mechanisms and approaches to international experience and scientific understanding of the importance of strengthening international cooperation in the development of innovative entrepreneurship in Azerbaijan.

**Originality and scientific novelty of the research -** consists of the development of conceptual provisions on the role of international cooperation and of the intensification of innovative entrepreneurship in new conditions, as well as in the preparation of key proposals for effectively ensuring the development of innovative entrepreneurship in the modern period.

***Keywords: innovative entrepreneurship, international cooperation, scientific and technical innovations, innovation policy, innovative approaches, development of innovative entrepreneurship in Azerbaijan, perspectives of the development of innovative entrepreneurship.***